***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

*UOT 37.015.3*

# TƏLİM MATERİALININ MƏNMSƏNİLMƏSİNDƏ OPERATİV HAFİZƏNİN ROLU

**Əminə Baba qızı Qədimova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti*
**E-mail:** aminaqadimova@admil.edu.az

***Açar sözlər:*** *təlim materialı, hafizənin rolu, operativ hafizə, materialın mənimsənilməsi, mənimsəmə fəaliyyəti*

***Ключевые слова:*** *учебный материал, роль памяти, рабочая память, усвоение материала, ассимиляционная деятельность*

***Key words:*** *learning material, the role of memory, working memory, assimilation of material, assimilation activity*

Müasir dövrdə elmi-texniki tərəqqi ilə əlaqədar gənclərin qəbul etdikləri informasiyaların miqdarı xeyli artır. Belə informasiyaların ən başlıcalarının yadda saxlanması məhz gənclərin hafizəsinin inkişafı ilə bağlıdır. Hafizə məktəblilərin psixi həyatının mühüm, həlledici xüsusiyyətidir.

Tədris prosesində təlimin keyfiyyətinin artırılması məqsədilə psixologiyada gənclərin aparıcı fəaliyyət şəraitinə-təlim fəaliyyətinə, sosial psixoloji problemlərin öyrənilməsinə əsaslı diqqət yetirilir. Bu baxımdan təlim fəaliyyətində gənclərin idrak proseslərinin fəallaşmasının tədqiqi məsələsi nəinki onların əqli inkişafında, həm də hərtərəfli, kamil bir şəxsiyyət kimi formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

İnsanın həyat və fəaliyyətində hafizənin idrak fəallığı mühüm rol oynayır. Hafizə olmasaydı, ətraf aləmin təsiri onun beynində heç bir iz buraxmazdı və insan təcrübəsi də təşəkkül tapıb yaşamazdı.

İnsanın gerçəkliyi başa düşməsi, anlaması, mənimsəməsi də hafizə materiallarına istinad etməklə mümkün olur. Hər hansı bir təlim materialını şagirdlərin anlaması və mənimsəməsi xüsusilə operativ hafizənin inkişafından asılıdır. Təlim materiallarının xarakterindən asılı olaraq operativ hafizənin həcmi (tutumu) dəyişir. Materialların mənimsənilməsi üçün zəruri olan biliklərin həcmi nə qədər genişləndirilərsə, anlamının da səviyyəsi yüksələr.

Operativ hafizə verilən tələblərdən biri onun çevikliyi, sürətliliyidir. Oxunulan və eşidilən hər hansı materialı başa düşmək (anlamaq) üçün həmin materialın əsas hissələrini müəyyən müddət hafizədə saxlamaq tələb edilir.

Biliklərin mənimsənilməsi keyfiyyəti məktəblilərin əqli inkişaf səviyyəsindən asılıdır. Bu da təlim fəaliyyətinin fəallaşdırılması, onun quruluş və vəzifələrinin müəyyən edilməsi, fərdi psixi xassələrin və bilavasitə intellektual fəallığın yüksək inkişafı zəminində reallaşdırıla bilər. Ona görə də təlimin səmərə və keyfiyyətini yüksəltmək müasir təhsil sisteminin quruluşunda bir sıra tələblərin nəzərə alınmasını zəruri hesab edir.

Bir şəxsiyyət kimi həm də hərtərəfli, kamil bir şəxsiyyət kimi formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

İnsan həyatı boyu gerçəkliyin eyni əşya və hadisələr ilə dəfələrlə rastlaşır. Bu əşya və hadisələr insandan hər dəfə eyni cür və yaxud da oxşar reaksiya tələb edir. İnsanın sinir sistemi təkrarlanan təsirləri və ona verilən cavab formalarını saxlamaq qabiliyyətinə malikdir. Bunun sayəsində hər hansı məlumatın dəyişdirilməsi, yenidən işlənməsi təkcə bu məlumat alındığı anda deyil, hətta onun təsiri keçdikdən sonra mümkündür.

Elə buna görə də hafizə insanın psixi həyatının vacib cəhətlərindən biri hesab olunur. Hafizənin rolu təkcə keçmişdə baş verənləri hifz etməklə bitmir, heç bir əməli fəaliyyət və ya aktual iş hafizə proseslərindən xaricdə təsəvvür edilə bilməz. Hər bir işin, ən sadə, psixi aktın belə həyata keçməsi onun elementlərinin keçmiş hadisələrlə bağlanmasını nəzərdə tutur. Belə "bağlanma" olmadan inkişaf da mümkün deyildir. Böyük rus fizioloqu İ.M. Seçenovun təbirilə desək, bunsuz insan "əbədi olaraq yeni doğulmuş uşaq vəziyyətində qalardı". İnsanın gerçəkliyi başa düşməsi, anlaması, mənimsəməsi də hafizə materiallarına istinad etməklə mümkün olur. Təlim fəaliyyətində bu cəhət xüsusilə diqqəti cəlb edir. Hər hansı bir təlim materialını şagirdlərin anlaması və mənimsəməsi hafizədən, xüsusilə operativ hafizədən kənarda, ona istinad etmədən mümkün deyildir. Ona görə də müəllimin həmin əlaqənin mahiyyətilə tanışlığı təlimin səmərəliliyi üçün vacibdir. Anlama və operativ hafizənin qarşılıqlı əlaqəsini aydınlaşdırmaq üçün birinci növbədə həmin anlayışların mahiyyətinə diqqət yetirək.

Tarixən hafizənin öyrənilməsi müxtəlif səpkidə olmuşdur. Bu prosesi izləmək əsas məqsədimiz olmadığından, yalnız onu qeyd etmək lazımdır ki, hafizəni eksperimental yolla öyrənən tədqiqatlarda iki istiqamət daha qabarıq şəkildə nəzərə çarpır: hafizə işdir-sinir izlərindən ibarətdir: hafizə işdir, fəaliyyətidir.

Hafizənin prosesləri insanın istənilən fəaliyyətinə üzvi surətdə daxil olur və onun icrasının zəruri şərtinə çevrilir. İnsan fəaliyyəti ya tələbat və ya motivlə təyin edilir və həmişə müəyyən məqsədə yönəlmiş olur. Əgər bəzi hallarda fəaliyyətin motivi kifayət qədər aydın dərk olunmasa da, onun predmeti ilə məqsəd aydın dərk olunur. İnsan fəaliyyətinin bir sıra cəhətləri, o cümlədən məqsədə nail olmaq həmin proseslərdən asılıdır. Fəaliyyətin məzmunun mürəkkəbləşməsi hafizə proseslərinə verilən tələblərin müvafiq surətdə artmasına gətirib çıxarır.

Beləliklə, istənilən fəaliyyət onun məqsədinə çatmaq yolunda zəruri olan hafizə proseslərinin iştirakını tələb edir. Fəaliyyət baxımından hafizənin öyrənilməsi bu prosesin tərz və üslublarının, həmçinin yaddasaxlamanın təşkilinin bəzi xüsusiyyətlərini aydınlaşdırmağa imkan vermişdir. Fəaliyyətin xüsusi növü kimi yaddasaxlamaya daxil edilən anlama və fəaliyyətin xüsusiyyətilə təyin olunur.

Burada qısamüddətli və uzunmüddətli (hafizənin) rolunu xüsusilə qeyd etmək lazımdır. Materialın dəfələrlə təkrarından sonra, uzun zaman yadda saxlanılması ilə xarakterizə edilən uzunmüddətli hafizədən fərqli olaraq qısamüddətli hafizə qısamüddətli qavrayışdan sonra çox qısamüddətli hifzetmə və dərhal yadasalma ilə xarakterizə olunur. Qısamüddətli və uzunmüddətli yaddasaxlamanın arasında bir növ keçidi təşkil edən səviyyəyə əməli, yaxud operativ hafizə adı verilmişdir. Operativ hafizə insanın cari fəaliyyətini təmin edən, bilavasitə həyata keçirdiyi aktual iş və əməliyyatlara xidmət edən bir hafizə prosesi kimi xarakterizə oluna bilər. O, insanın icra etdiyi işin hər bir konkret əməliyyatının nəticəsi üçün zəruri şərt kimi başa düşülə bilər.

Aparılan tədqiqatlar göstərmişdir ki, operativ hafizənin səciyyəsi-tutumu, dəqiqliyi, labüdliyi (çevikliyi) və s. bir tərəfdən xidmət etdiyi fəaliyyətin məzmun və strukturu ilə, digər tərəfdən isə onun formalaşma dərəcəsi ilə şərtlənir.

Operativ hafizə istənilən fəaliyyətin üzvü komponentidir, elə cari yaddasaxlama və yadasalmadır ki, burada yaddasaxlama kənar, xarici funksiya deyil, işin icrasının təbii zərurəti ilə törədilir. Bu halda həmin materialın hifz olunması yenidən işlənənə qədər davam edir. Məhz buna görə də materialın anlaşılması prosesində birinci növbədə operativ hafizədən istifadə olunur.

Bəs anlama dedikdə nəyi başa düşürük? Bir şeyi anlamaq əşyanın, hadisənin mahiyyətini açmaq deməkdir. Adətən, hər cür idraki məsələ şüurla ayrı-ayrı suallar və ya suallar sistemi şəklində əks olunur. İnsanın qarşısında çıxan sual ondan nəyi isə anlamağı tələb edir. Əgər bu zaman cavab məlumdursa anlama dərhal baş verir, məlum deyildirsə cavabın fəal axtarılması və yaxud anlama prosesinin təşkili baş verir. Həll olunacaq məsələ və onu təşkil edən suallar nə qədər mürəkkəbdirsə anlamanın təşkili və baş verməsi də bir o qədər mürəkkəb xarakter daşıyır. Axtarılan cavabı heç də həmişə əldə etmək mümkün olmur. Əgər qarşıda duran suala cavab yoxdursa, deməli anlama da baş verməmişdir.

Xüsusi psixoloji terminologiyada anlamanın bir neçə mənası verilmişdir. Birinci halda anlama "İşlər sisteminin, yaxud situasiyanın dərhal başa düşülməsi" kimi məna daşıyır.

İkinci hal bilavasitə anlamadır: "iş və ya situasiyanın məzmunun intellektual səviyyədə dərk edilməsi"dir. Bu səviyyə psixoloji xarakteristikaya malikdir. O, dinləyənin konkret şəraitdə nə edəcəyini, yaxud nə etməli olduğunu aydınlaşdırmağa imkan verir.

Üçüncüsü isə sözün  və ya ifadənin mənasını başa düşdüyünü nəzərdə tutan həqiqi anlamadır. Bu termin geniş mənada işlədilir. Belə anlayış fikri fəaliyyətin elə növlərini əhatə edir ki, onlar linqvistik və ya praktik situasiyaya bələdləşməyə gətirib çıxarır.

Operativ hafizə fəaliyyətini ayrı-ayrı komponentlərinin həyata keçirilməsini təmin edir. O, yalnız konkret məqsədə çatmaq üçün zəruri olan materialın yadda saxlanmasına, hifz edilməsinə və yada salınmadığına zəmin yaradır. Bu iş bitdikdən sonra isə o, öz əhəmiyyətini itirmiş olur. Beləliklə, operativ hafizə prosesləri təcili proseslərdir. Bu proseslərin davamiyyəti onların xidmət etdiyi işin müddəti ilə təyin olunur.

Daim hafizədə materialın fəaliyyətin motivinə olan münasibəti həlledici əhəmiyyətə malikdirsə, operativ hafizədə fəaliyyətin üsulları ilə məqsədi bir-birinə uyğun gəlməlidir. Operativ hafizəyə verilən tələblərdən biri onun çevikliyi, surətliyidir. Materialın operativ hafizədə saxlanması onun  anlaşılmasını bilavasitə xidmət edir. Belə ki, oxunan və ya eşidilən hər hansı materialı başa düşmək (anlamaq) üçün həmin materialın bəzi hissələri müəyyən müddət hafizədə saxlanılmalıdır.

Psixoloji tədqiqatlar göstərmişdir ki, yaddasaxlama zamanı iş və əməllər şüurda saxlanılır, inkişaf edir, daim hərəkətdə olur və dəyişir. Yaddasaxlama fəal xarakterli proses sayıldığından o. daxil olduğu fəaliyyətdən asılıdır. Odur ki, öyrənmə prosesində təlim fəaliyyəti hafizə ilə daha sıx əlaqədardır. Təsadüfən deyil ki, şagirdlərin təlimdə əldə etdikləri nailiyyətlər çox vaxt onların hafizəsinin keyfiyyəti ilə izah olunur.

Təlim fəaliyyətinin səmərəliliyinin artırılması ilk növbədə şagirdlərin hafizəsindən optimal istifadə etməklə mümkündür. Hafizənin xarakterik cəhətini üzə çıxardan əsas mənbələri onun özündə deyil, məhz insan fəaliyyətinin xüsusiyyətlərində axtarmaq lazımdır.

Hər cür təlim materialının mənimsənilməsində anlama ilə operativ hafizənin qarşılıqlı əlaqəsi həlledici əhəmiyyətə malikdir. Belə ki, operativ hafizədən istifadə etmədən şagirdlər riyazi və dil məsələlərinin həll olunmasında, tarixi, coğrafi, bioloji anlayışların mənimsənilməsində, fiziki və kimyəvi qanunların başa düşülməsində çətinlik çəkəcəkdir. deməli, bu sahədə anlamanın sürəti və keyfiyyəti aşağı düşəcək, hətta bəzən anlama prosesi baş verməyəcəkdir. Ona görə də müəllim müvafiq əməliyyatları aparmaq üçün zəruri olan biliyin formalaşmasına birinci dərəcəli iş kimi baxmalıdır. Yalnız bu yolla şagirdlərin operativ hafizəsi onların təlim materialını anlama və mənimsəmələrini təmin edən amilə çevrilər.

**Problemin aktuallığı.** Təlim materialının səmərəli təşkilində hafizə vacib məqamlardan biridir. Hafizə əqli inkişafda müstəsna əhəmiyyətə malikdir və hər kəs öz hafizəsinin fəaliyyətini düzgün təşkil etməyə səy göstərməlidir.

**Problemin elmi yeniliyi.** Tədqiqat işində hafizənin təlim fəaliyyətində elmi biliklərin əldə edilməsinə yönəldilir. Təlim fəaliyyətini fəallaşdırmaq üçün ilk növbədə idrak maraqlarını motiv, şəxsiyyətin mühüm cəhəti və təlim vasitəsi kimi sistematik olaraq möhkəmləndirmək və inkişaf etdirmək zəruridir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi**. Müəllif tərəfindən hazırlanmış məqalədə əldə olunmuş elmi təlim prosesində, eləcə də auditoriyadan kənar vaxtlarda istifadə oluna bilər. Müəllif elmi nəticələrini ali məktəblərdə, elmi konfranslarda, mühazirə və seminarlar məşğələlərində tətbiq etmişdir, tədris vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

## Ədəbiyyat


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.
3. Брунер Дж. Психология познания. М., 1977.
4. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı, 2007.
5. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
6. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2002.
7. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2001.


**А.Б. Кадимова**

## Роль рабочей памяти в усвоении учебного материала
## Резюме

Он рассматривает память как процесс, играющий важную роль в процессе усвоения, память имеет большое социальное значение, память является важной, решающей чертой психической жизни молодых людей. Если бы у человека не было памяти, он не смог бы усвоить опыт человечества и передать его будущим поколениям. Память рассматривает ее как процесс, играющий важную роль в процессе усвоения. Запоминание не заканчивается простым запоминанием и припоминанием прошлого опыта. В то же время память подготавливает почву для будущей деятельности человека, вооружает человека

необходимой информацией для выполнения предстоящей ему деятельности, направляет его будущую деятельность, создает связь между его прошлой деятельностью и его будущей деятельностью, подталкивает его к постоянному поиску новой. Таким образом, память обеспечивает целостность и полноту личности.

**A.B. Gadimova**

**The role working memory in mastering educational materials**
**Summary**

He considers memory as a process that plays an important role in the process of assimilation, memory is of great social importance, memory is an important, decisive feature of the mental life of young people. If a person did not have memory, it would not be possible to absorb the experience of humanity and pass it on to future generations. Memory considers it as a process that plays an important role in the process of assimilation. Memorization does not end with merely memorizing and recalling past experience. At the same time, memory prepares the ground for a person`s future activity, equips a person with the necessary information to perform the activity ahead if him, directs his future activity, creates a connection between his past activity and his future activity, and pushes him to constantly search for new ones. Thus, the memory ensures the integrity and completeness of the personality.

**Redaksiyaya daxil olub:** 27.09.2024